*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 fevral 2018-ci il № 16 (2232) Qiyməti 25 qəpik


# Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.*





Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

# Azərbaycan ilə Serbiya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub



*Fevralın 27-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiç ilə görüşüb.*

Azərbaycan ilə Serbiya arasında münasibətlərin inkişafında dövlət başçılarının rolunun vurğulandığı görüşdə bir çox istiqamətlərdə olduğu kimi, hərbi sahədə də əlaqələrin uğurla davam etdiyi bildirilib.

Ölkələrimiz arasında mühüm strateji əməkdaşlığın, dost və mehriban münasibətlərin mövcudluğunu qeyd edən diplomat Serbiyanın Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü daim dəstəklədiyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Serbiya arasında hərbi, hərbi təhsil və hərbi-texniki sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair məsələlər müzakirə edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto gizir Elmar ZEYNALOVUNDUR**

# Azərbaycanın Müdafiə naziri Belarus Silahlı Qüvvələrinin 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edib



*Minskdə səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iki ölkə arasında hərbi əməkdaşlığın inkişafında göstərdiyi xidmətlərə görə Azərbaycanın Müdafiə naziri "Belarus Respublikası Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı ilə təltif olunub.

Sonra general-polkovnik Zakir Həsənov və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri Minsk şəhərindəki Qələbə meydanını ziyarət edərək Qələbə abidəsinin önünə əklil qoyublar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

*27 fevral 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 116 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Döyüş hazırlığı

# Düşmən hədəfimizdən yayınmayacaq

*Qış... Uşaqlıqdan bu fəslin vurğunu olmuşam. İlk qar yağanda sevincimizin həddi-hüdudu olmayıb. Həyətdə uşaqlarla qartopu oynayıb, qardan adam düzəltmişik. Beləcə illər bir-birin əvəz edib və yaşa dolduqca anlamışam ki, qış fəsli gözəl olduğu qədər də çətindir. Bunu xidmət müddətində daha dərindən dərk etdim. Qışda havanın soyuq keçməsi, yolların buz bağlaması, dumanlı olması xidmətdə məsuliyyətimizi daha da artırırdı.*



Dəniz səviyyəsindən min metrlərlə yüksəklikdə yerləşən bölmələrdə isə qış daha sərt keçir. "N" hərbi hissəsinin zabiti Fariz Hüseynovla görüşüb söhbət etdik. Zabit xidmətin yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi. "Havanın sərt keçməsi, qarlı, dumanlı olması əsgərlərin xidmətinə heç bir maneçilik törətmir. Şəxsi heyət isti paltarla, corabla, əlcəklə, həmçinin yüksək kalorili yeməklərlə təmin olunur. Buna görə də onlar xidmətə ikiqat məsuliyyətlə yanaşır, gecə-gündüz döyüş mövqelərində düşməni müşahidə edirlər. Bu isə qarşımıza qoyulan bütün tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir."

Zabit F.Hüseynovla söhbətləşdikdən sonra vaxt itirmədən artilleriya bölməsinə yola düşürük. Yollar qarlı və buzlu idi. Lakin buna baxmayaraq "UAZ" markalı maşını məharətlə idarə edən sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Cavidan Qarayev bizi ünvana rahatlıqla çatdırdı. Yol boyu Cavidanla söhbətdən öyrənirəm ki, onun atası da hərbçi olub və hazırda təqaüddədir. Ata yolunu davam etdirməkdən son dərəcə məmnunluq duyan əsgərin gözlərindəki qürur hissini də sezmək çətin deyildi.

Artıq bölmədəyik. Heyətlər topların ətrafında düzülərək dərslərə cəlb edilmişdi. Taqım komandirinin nəzarəti altında topu "Döyüşə" və "Səfərə" vəziyyətinə gətirir, sual yarandıqda isə müraciət edib cavab alırdılar. Dərs prosesini yaxından izləmək və qeydlər götürmək üçün şəxsi heyətə yaxınlaşıram. İlk olaraq komandirlə tanış oluram. Zabit Nicat Əliyev 2008-ci ildən ordu sıralarındadır. Lənkəran rayonundandır. O, qeyd etdi ki, bu gün artilleriya bölmələri istənilən tapşırığı yerinə yetirməyə hazırdır.

- Dövlətimizin ordu quruculuğuna diqqət və qayğısını biz də daim hiss edirik, - zabit deyir. - Yuxarı komandanlığın təsdiq etdiyi döyüş hazırlığı tədbirləri kompleks şəkildə yerinə yetirilir. Günün nizam qaydasına uyğun olaraq gündüz və gecə dərsləri şəxsi heyətə keçirilir. Əsgərlərimiz artıq toplardan təyinatı üzrə istifadə etməyi bacarırlar. Təkcə dərslərlə kifayətlənmirik, Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, praktiki təlimlərimiz də yüksək səviyyədə keçirilir.

Zabitlə söhbətimdən sonra top komandiri baş çavuş Əli Feyzullayevlə görüşürəm. Sabirabad rayonundan olan Əli başqa bölgədə əsgəri xidmətini başa vurduqdan sonra yenidən ordu sıralarına qayıtmaq üçün müraciət edib. Bu gün artıq təcrübəli top komandiridir. "Çox sevinirəm ki, ön xətdə mərd Vətən övladları və peşəkar zabitlərlə bir sırada xidmət edirəm. Kollektivimiz çox mehribandır. Əsgərlər dərs və təlimlərə yüksək maraq göstərirlər. Bir top komandiri kimi deyə bilərəm ki, bütün heyət istənilən an "Həyəcan" siqnalı ilə mövqeyi tutacaq. Topu qısa zamanda "Döyüşə" vəziyyətinə gətirib göstərilən düşmən hədəfini məhv edəcəklər."

Növbəti müsahibim isə tuşlayıcı çavuş Faiq Əliyevdir. Gəncə şəhərindən olan Faiq artıq bir neçə ildir bu hərbi hissədə xidmət edir.

- Gələcək döyüşlərdə artilleriya qüvvələrinin rolu barədə nə deyə bilərsən?

- Bütün qoşun növləri kimi, artilleriya bölmələri də ən müasir silah və avadanlıqlarla təchiz olunub. Bilirik ki, digər bölmələrin rahat irəliləməsi üçün artilleriya atəşi vacib şərtdir. Iki il öncə aprel döyüşlərində də şahidi olduq ki, artilleriya bölmələri düşmənə həm ordumuzun gücünü, həm də əsgərlərimizin döyüş əzminin yüksək səviyyədə olduğunu sübut etdi. Bu gün də bölmələrimiz düşmənin bütün hədəflərini darmadağın etməyə hazırdır.

Əsgər Kamran Hümbətli isə keçirilən dərslərin əhəmiyyətindən danışdı. "Havanın soyuq və şaxtalı keçməsinə baxmayaraq dərslərimiz yüksək səviyyədə keçir. Artıq biz əsgərlər artilleriya qurğusunun taktiki-texniki xüsusiyyətlərini, ondan istifadə qaydalarını mükəmməl öyrənmişik. Uğurlarımıza görə komandirlərimizə borcluyuq. Düşmənə ağır zərbələr endirməyə və işğal altındakı torpaqlarımızı azad etməyə tam hazırıq."

Heyətin digər üzvlərindən əsgərlər Niyaməddin Hüsiyev, Eltun Əliyev və Tural Həmidov da bu gün dərslərdə öyrəndiklərini sabahkı döyüşlərdə icra etməyə hazır olduqlarını bildirdilər.

**Baş leytenant Məhəmməd NƏSİRLİ, "Azərbaycan Ordusu"**

*Təlim*

# İstehkamçılar hər cür sınağa hazırdırlar

*Döyüş əməliyyatlarının mühəndis təminatı üçün təyin olunan xüsusi qüvvələr mühəndis qoşunları adlanır. Bir çox ölkələrin ordusunda fəaliyyət göstərən mühəndis-istehkamçılar təyinatlı birləşmələrdən, hissə və bölmələrdən ibarətdir. Döyüş və müxtəlif əməliyyatlarda, mühəndis-istehkam qüvvələrindən geniş istifadə olunur. Mühəndis təminatının daha mürəkkəb tapşırıqlarını yerinə yetirmək üçün mütəmadi olaraq şəxsi heyətlə döyüş hazırlığı dərsləri keçirilir.*



Leytenant Ceyhun Bayramov bildirir ki, mühəndis-istehkamçılar döyüş zamanı əhəmiyyətli vəzifəni yerinə yetirirlər. "Onlar qoşunların hərəkəti üçün əlverişli şərait yaradır, qoşun və obyektlərin bütün məhvetmə vasitələrindən müdafiəsinin yüksəldilməsi və eləcə də mühəndis sursatları ilə düşmənin hərəkətini çətinləşdirmək məqsədi ilə kompleks tədbirlər həyata keçirirlər. Döyüş əməliyyatlarında qazanılan müvəffəqiyyət bir çox hallarda mühəndis təminatı üzrə tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsindən asılıdır. Hər birimiz üzərimizə düşən məsuliyyətin fərqindəyik və mütəmadi olaraq keçirilən dərslər zamanı şəxsi heyətin döyüş vərdişlərinin artırılmasına çalışırıq".

Zabitlə həmsöhbət olduğumuz zaman öyrənirik ki, Kəlbəcər və Murov istiqamətində gedən döyüşlərdə iştirak edən atası Kərəm Bayramovun dəstəyi ilə hərb yolunu seçib.

"Hələ məktəbdə oxuyarkən atam müharibədən danışır, ermənilərin törətdikləri vəhşilikləri nəql edirdi. Eşitdiklərim gözümün önündə canlanır, hiddətlənirdim. Elə həmin vaxtlarda hərbçi olmağı qərara aldım. İndi isə ön xətdə yerləşən hərbi hissədə Vətənimizin keşiyindəyəm. Gənc komandir olaraq əsgərlərin mənəvi-psixoloji və döyüş hazırlığının artırılmasında əlimdən gələni edirəm".

İstehkamçı əsgər Anar Vəliyev Şamaxı rayonundan hərbi xidmətə çağırılıb. Qısa bir müddətdə komandirlərindən mühəndis-istehkam peşəsinin sirlərini öyrəndiklərini, hər an döyüşə hazır olduqlarını qeyd edir:

- Mütəmadi olaraq dərslər keçirik. Dərslər zamanı öyrəndiklərimizi praktik olaraq icra edirik. Hər birimiz vəzifəmizin məsuliyyətinin fərqindəyik.

Əsgər Elmin Məmmədli Tovuz rayonundandır. Dərslərdə fəal iştirakına, mühəndis-istehkam tapşırıqlarını düzgün yerinə yetirdiyinə görə baş istehkamçı vəzifəsinə təyin olunub. O deyir:

- Bizlər əhəmiyyətli vəzifə daşıyırıq. Düşmənin maneələrini dəf etmək, eləcə də onların irəliləməsinə maneçilik yaratmaq üçün hər gün öz üzərimizdə çalışırıq. Ona görə ki, istənilən şəraitdə, tələb olunan həcmdə və lazımi ardıcıllıqla mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsini təşkil edir və buna görə məsuliyyət daşıyırıq.

Əsgər Hüseyn Seyfullayev isə hərbi xidmətə Bakı şəhərindən çağırılıb. O, qısa zamanda torpaqlarımızı azad etmək əzmində olduqlarını bildirir:

- Tarix Azərbaycan əsgərinin gücündən, qüdrətindən, Vətən sevgisindən danışacaq. Çünki biz əsgərlər bu gün hazırlıqlı döyüşçü kimi formalaşırıq. Ali Baş Komandanın əmriylə düşmənə qarşı çevik hərbi əməliyyatlara tam hazırıq.

Şamaxılı əsgər Teyyub Salahov da Vətəni qorumağın əsl övlad borcu olduğunu bildirir:

- Bu gün əsgərik, sabah ehtiyatda olsaq da, döyüşlərə atılacağıq. Harada olmağımızdan asılı olmayaraq Vətənimiz Azərbaycanı sevməli, düşməni torpaqlarımızdan qovmağa hazır olmalıyıq. Bu səbəbdən də təcrübəli döyüşçü kimi formalaşmaq əsas vəzifəmizdir. Bu gün istehkamçıyam və vəzifəmin öhdəsindən gələ bilmək üçün komandirlərimdən hər şeyi öyrənməyə çalışır, döyüş meydanında üzərimə düşən tapşırıqları əzmlə yerinə yetirməyə hazır olmalıyam. Ona görə də hər birimiz öz işimizə ikiqat məsuliyyətlə yanaşmalıyıq.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Gənc zabitlərimiz*



# İnam, dövlətçiliyə sədaqət vətəndaşlıqdır

*Yeniyetmənin peşə seçiminə müxtəlif amillər təsir göstərir: Oxuduğu kitablar, baxdığı filmlər, eşitdiyi söhbətlər, müşahidə etdiyi hadisələr, ata yolunun davamçısı olmaq istəyi və s.*



Ermənistanın Azərbaycana torpaq iddiası ilə başlanan müharibədə qəhrəmanlıqlar göstərən oğulların ömür yolu yeniyetmələrimizin düşüncələrini Vətənə kökləyir, onları hərbçi olmağa ruhlandırır. Onlar Vətənə xidməti ömür yolu seçirlər.

Baş leytenant Tural Tahirov Salyanda anadan olub.

Şəhid Mehman Babayev adına 1 saylı orta məktəbdə oxuyub. "Xocalı soyqırımının baş verdiyi 1992-ci ilin ağrı-acıları mənimlə son nəfəsədək yaşayacaq. Hər il yaşımdan söz düşəndə onsuz da unutmadığım bu dəhşətli hadisəni xatırlayıram"...

Tural belə deyir, həm də səsindəki qəhər aydınlığıyla sezilir. Bu kəlmələri onun düşüncələrindən süzülən işıq bilirəm.

C.Naxçıvanski adına hərbi liseyin məzunudu. "İlk vaxtlar müəyyən çətinliklər olurdu. Komandirlərimin, zabitlərimizin dəyərli məsləhətləri bu çətinliklərin öhdəsindən gəlməyimə yardımçı oldu. Bir də istəyim, arzum, niyyətim..." - gənc zabitin qüruru duyulur bu kəlmələrdə...

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olanda da mühit ona tanış idi - hərbi intizam, əmr və göstərişləri sözsüz və vaxtında yerinə yetirmək; öyrədilənləri mükəmməl öyrənmək. Kursant Tural Tahirov fəal idi, necə deyərlər, vaxtın qədrini bilirdi. Öyrəndikləri təlimlərdə təkmilləşib. "Təkcə hərbi bilikləri öyrənmirdik, həm də zabitlərin kursantlarla, deməli, bizim gələcəkdə əsgərlərlə ünsiyyət qurma sirlərini öyrənirdik. Əsgərlərinin timsalında Vətənin müdafiəsini görən zabit yaxşı zabitdir. Təvazökarlıqdan uzaq olsa da deyim ki, mən də yaxşı zabit olmaq istəyirdim" - baş leytenant Tural Tahirovun inamı bizə könül xoşluğu verir.

Tural Tahirov yaxşı zabit oldu; arzuya, niyyətə söykənən maraq, həvəs, niyyət, çəkilən zəhmət bəhrəsini verdi. 2014-cü ildən ön xətdə xidmət edir...

"Əsgərlərimlə söhbətlərdə onlara xalq şairi Məmməd Arazın bir şeirini xatırladıram: "Vətən mənə oğul desə, nə dərdim...". Əsgərlərimə "Vətən sizə oğul deyir. Siz Vətənimizin müdafiəçilərisiniz. Sülh danışıqları baş tutmasa, torpaqlarımızı işğaldan siz azad edəcəksiniz..." - deyirəm və onların baxışlarında gördüklərimdən hiss edirəm ki, hər biri qələbə gününün tezləşdirilməsi hərbi xidmətinin amalı bilir..."

Baş leytenant Tural Tahirovun əsgərlərinə inamı bizim də Böyük Qələbənin uzaqda olmadığını xatırladır...

"2016-cı ilin aprel döyüşləri ordumuzun nəyə qadir olduğunu təsdiqlədi. Onda mən də döyüşlərin sırasında olmaq istəyirdim..." - səsində təəssüf duyuram və mənə belə gəlir ki, bu təəssüf Qələbə Günü sovuşacaq...

...Baş leytenant Tural Tahirov son illərdə həyata keçirilən irimiqyaslı islahatları ordu quruculuğumuzun yeni mərhələsi kimi dəyərləndirir və bu qənaəti ümumən bütün zabitlərimizin qənaəti bilirəm. Bu qənaət inamdır, dövlətçiliyə sədaqətdir. İnam, dövlətçiliyə sədaqət vətəndaşlıqdır.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## "Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı tezliklə azad edəcək"

1992-ci ildə könüllü olaraq Ağdama yollandım. Sonra isə Şuşada Qarabağ könüllü müdafiə batalyonunun tərkibində ermənilərə qarşı vuruşmuşam. Çox təəssüflər olsun ki, o vaxtkı rəhbərliyin böyük səhvləri ucbatından Xocalı şəhərinin əhalisi tamamən köməksiz qaldı.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Xətai rayonundakı "Ana fəryadı" abidəsini ziyarət edən Suraxanı Rayon Veteranlar Təşkilatının sədri, ikinci qrup müharibə əlili Eldar Rüstəmov deyib.

Xocalıda igid oğullarımızın son damla qanınadək vuruşduğunu söyləyən keçmiş döyüşçü deyib ki, bütün bunlara baxmayaraq təpədən-dırnağadək silahlanmış ermənilər şəhərə daxil olaraq yüzlərlə silahsız və köməksiz xocalılını qətlə yetirib.

"Biz hər il olduğu kimi, bu il də Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edirik. "Ana fəryadı" abidəsini, eyni zamanda, çoxsaylı gənclərimiz ziyarət edir. İndiki gənclərə demək istəyirəm ki, Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı tezliklə azad edəcək. Azərbaycan dövlətinin yüksək diqqət və qayğısından bəhrələnən gənclərimiz torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə tam hazırdırlar", - deyə Eldar Rüstəmov vurğulayıb.

AZƏRBAYCAN ORDUSU

Hərbi təhsil

# "Ordusu olmayan ölkə müstəqil ola bilməz"

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Tacikistan Silahlı Qüvvələrinin yaranmasının 25-ci ildönümü münasibətilə tədbir keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin və Tacikistanın Azərbaycandakı səfirliyinin nümayəndələri, millət vəkilləri, zabit və kursantlar iştirak edirdi.

Öncə ümummilli liderimiz Heydər Əliyevin məktəbin həyətindəki abidəsinin önünə əklil qoyuldu. Hər iki ölkənin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycanın və Tacikistanın Dövlət himnləri səsləndirildi.

Ali Hərbi Məktəbin rəis müavini, polkovnik Ruslan Məmmədov tədbiri açaraq Tacikistan xalqını yubiley münasibətilə təbrik etdi və bildirdi ki, Azərbaycanla Tacikistan arasında ikitərəfli əməkdaşlıq yüksək səviyyədədir. "Azərbaycan və Tacikistan xalqları arasında dostluq və qardaşlıq münasibətlərinin böyük tarixi var. Bu münasibətlərin təməli 1992-ci ildə qoyulub. Ulu öndər Heydər Əliyevin və Emomali Rahmonun yürütdüyü siyasət nəticəsində iki ölkə arasında əməkdaşlıq münasibətləri yetərincə inkişaf etdirilib və bu əməkdaşlıq Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə indi də davam etdirilir. İki ölkənin Silahlı Qüvvələri arasında da əməkdaşlıq yüksək səviyyədədir. Tacikistan ordusunun güclənməsində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin də rolu var. Bu məktəbdə təhsil alan tacikistanlı kursantları ölkələrində ordu quruculuğunun inkişafına öz töhfələrini verirlər."

Tacikistanın Azərbaycandakı səfiri Rustam Soli iki qardaş xalqın tarixi və mədəni əlaqələrinin güclü olduğunu və bu dostluğun çoxəsrlik ənənələrə əsaslandığını qeyd etdi. Tacikistanın müasir dövrdə ordu quruculuğu sahəsində qazandığı uğurlardan danışan səfir hərbi təhsildə hər iki ölkənin qarşılıqlı əməkdaşlığının faydasını vurğulayaraq bildirdi ki, Azərbaycanla Tacikistan qardaş ölkələrdir. "Məhz qardaş ölkə Azərbaycan tacikistanlı kursantların təmənnasız təhsili üçün unikal imkan yaradıb. Qardaşlıq hissləriylə belə bir addım atan Azərbaycana sonsuz təşəkkür edirik."

General-mayor Ənvər Əfəndiyev Müdafiə Nazirliyinin rəhbərliyi adından tacikistanlı qonaqları salamlayaraq qardaş ölkənin Silahlı Qüvvələrinin yaranmasının 25-ci ildönümü münasibətilə təbriklərini çatdırdı. Qeyd etdi ki, hər bir ölkənin ordusunun yaranması tarixi bayramdır. "Ordusu olmayan ölkə müstəqilliyini qoruyub saxlaya, müstəqil siyasət yeridə bilməz. Çünki hər bir dövlətin möhkəmlənməsində ordunun rolu böyükdür."

Azərbaycan və Tacikistan orduları arasında əməkdaşlığı yüksək qiymətləndirən general-mayor bildirdi ki, 2010-cu ildən etibarən Azərbaycan Ali Hərbi Məktəbinə qardaş ölkədən 40 nəfər kursant qəbul olunub. "Onların bir qismi artıq təhsillərini müvəffəqiyyətlə başa vuraraq Tacikistan Silahlı Qüvvələrində zabit kimi xidmət edir. İnanıram ki, hazırda ölkəmizdə təhsillərini davam etdirən tacikistanlı kursantlar da hərbi təhsil ocağımızın şərəfini uca tutacaqlar."

Tədbirdə iştirak edən Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, millət vəkili Aydın Mirzəzadə hər iki ölkənin qarşılıqlı münasibətlərindən danışdı. "Bu gün Azərbaycanla Tacikistan arasında iqtisadi, siyasi, parlamentlərarası əlaqələr yüksək səviyyədədir. Çoxəsrlik ənənələrə əsaslanan mehriban dostluq, birgə əməkdaşlıq bu gün də davam edir. Azərbaycan da Tacikistanla əməkdaşlığa həmişə xüsusi önəm verib və bu münasibət Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənəcək."

Tədbirin sonunda kursantların iştirakı ilə ədəbi-bədii kompozisiya nümayiş olundu.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
foto
gizir
Mövlan NƏSİRZADƏNİNDİR**

# "Münaqişələr dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır"

*İran və Azərbaycanın dövlət başçıları qarşılıqlı əlaqələrin inkişafına diqqət yetirir. Hərbi sahə hər iki ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Bu sahədə əməkdaşlıq əlaqələrinin qurulması İran və Azərbaycanın milli maraqlarına xidmət edəcək.*

Bu sözləri İranın müdafiə naziri briqada generalı Əmir Hatəmi Azərbaycana səfərinin yekunları haqqında yerli mətbuata verdiyi açıqlamada deyib.

Nazir bildirib ki, Azərbaycana səfəri uğurlu olub. Keçirdiyi görüşlərin nəticəsi kimi Azərbaycan tərəfi ilə təcrübə mübadiləsinin aparılması, birgə hərbi kadrların hazırlanması və birgə hərbi sursatların istehsal olunması məsələlərində razılıq əldə edilib.

Əmir Hatəmi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair fikrini açıqlayaraq bildirib ki, İran bütün münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll olunmasına tərəfdardır. Dövlətlərin ərazi bütövlüyü toxunulmaz olaraq qalmalıdır.

**AZƏRTAC**

# Şəhid Fizuli Salahovun təltif edildiyi medal övladlarına təqdim olunub



Düşmən təxribatının qarşısını alarkən şəhid olan Azərbaycan Ordusunun giziri Fizuli Süleyman oğlu Salahovun təltif edildiyi "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medal fevralın 23-də onun övladlarına təqdim edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Şabran şəhərindəki Heydər Əliyev Mərkəzində təşkil olunan mərasimdə rayon icra hakimiyyəti başçısının müavini Mehdi Balabəyov, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani çıxış edərək ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlərdən danışıb, cəbhə bölgəsində döyüşlərdə Milli Ordumuzun qazandığı uğurları diqqətə çatdırıblar.

Bildirilib ki, F.Salahov 1978-ci ildə Şabranın Gəndov kəndində dünyaya gəlib. Şəhidlik zirvəsinə ucalanadək 20 ilə yaxın Azərbaycan Silahlı Qüvvələrində xidmət edib. Vətənə şərəflə qulluq edən gizir daim öz cəsarəti və igidliyi ilə seçilib. Hərbi xidmətdə fərqləndiyinə görə sağlığında dəfələrlə təltif olunub. F.Salahova "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı Prezident İlham Əliyev cəbhə bölgəsinə səfəri zamanı şəxsən təqdim edib.

Aprel döyüşlərinin də fəal iştirakçısı olan Fizuli Salahov 2017-ci il dekabrın 13-də cəbhənin Füzuli bölgəsində erməni silahlı qüvvələrinin təxribatının qarşısını alarkən şəhidlik zirvəsinə ucalıb.

Çıxışlarda qəhrəmancasına şəhid olmuş Fizuli Salahovun daim xatirələrdə yaşayacağı, onun şərəfli ömür yolunun gənclərə örnək olduğu bildirilib.



Daha sonra şəhidin layiq görüldüyü medal onun övladları Nihat və Nicata təqdim olunub.

Şəhidin atası Süleyman Salahov torpaqlarımızın azadlığı uğrunda canından keçən oğlu ilə fəxr etdiyini söyləyib. Şəhid atası bildirib ki, hər bir Azərbaycan gənci Vətən uğrunda döyüşməyə, torpaqlarımızı düşməndən azad etmək üçün silaha sarılmağa hazır olmalıdır.

F.Salahovun təltif edildiyi medal təqdim olunduqdan sonra mərasim iştirakçıları rayonun Gəndov kənd qəbiristanlığında şəhidin məzarını ziyarət ediblər.

# XX əsrin faciəsi - Xocalı soyqırımı

## Xocalı faciəsinin ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunda Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib. Təsdiq edilmiş plana əsasən, tədbirlər bir sıra şəhər və rayonları, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrini, mərkəzi və qarnizon zabitlər evlərini, klub və kitabxanaları əhatə edib. Tədbir iştirakçıları tərəfindən ümummilli lider Heydər Əliyevin, Xocalı soyqırımı qurbanlarının və Azərbaycan Respublikasının azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.*






“N” hərbi hissəsində Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani bəşəriyyətin ən qəddar və amansız terror hadisəsindən biri olan Xocalı soyqırımı haqqında danışıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bildirilib ki, bu faciə 200 ildən artıq müddətdə erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağda erməni hərbi birləşmələri keçmiş Sovet ordusuna məxsus 366-cı motoatıcı alayın əsgər və zabitləri ilə birlikdə Xocalı şəhərini yerlə-yeksan edərək dinc əhalini, xüsusilə uşaqları, qadınları, qocaları ağlasığmaz vəhşiliklə öldürüblər.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara çatdırılıb.

Hərbi birliyin zabiti Mehman Kərimov da ermənilərin törətdikləri vəhşiliklərdən söz açaraq Azərbaycan Ordusunun gücü ilə bütün şəhidlərimizin qisasının alınacağını bildirib.

Tədbirdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi ədəbi-bədii proqram ilə çıxış edib.

Sonda "Salnamə" kinostudiyasının hərbi-vətənpərvərlik mövzusunda istehsal etdiyi və real faktlara əsaslanan "Mən evə qayıdıram" bədii filmi şəxsi heyətə nümayiş etdirilib.

* * *

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş tədbirdə sözügedən qurumun və C.Naxçıvanski adına Hərbi Liseyin nümayəndələri iştirak edirdi.

Sonra H.Aslanov adına Mərkəzi Zabitlər Evinin mədəni kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədova Xocalı faciəsinin xalqımızın qan yaddaşına həkk olunduğunu qeyd edərək, XX əsrin sonunda baş vermiş bu soyqırımı aktının təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri olduğunu bildirdi.

Mərasim iştirakçıları Xocalı soyqırımına həsr olunmuş sənədli filmin nümayişindən sonra Mərkəzi Zabitlər Evinin yaradıcı heyətinin iştirakı ilə "Xocalı - əsrin faciəsi" adlı ədəbi-bədii kompozisiyanı böyük maraqla izlədilər.

Təlim və Tədris Mərkəzinin rəisi general-mayor Gəray Bağırovun Xocalı soyqırımına həsr olunan məruzəsi dinlənildi və saat 17:00-da Xocalı soyqırımı qurbanlarının xatirəsi sükut dəqiqəsi ilə yad edildi.

Anım mərasimində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kollektivi tərəfindən hazırlanan Xocalı qətliamına dair film də nümayiş olundu. Təqdim olunan filmdə o zamankı hərbi-siyasi durum, bir şəhər əhalisinə soyqırımı törədə biləcək qüvvənin yaranması və təkamülü, əməliyyat şəraiti və s. amillər öz əksini tapmışdı.

* * *

1992-ci ilin 26 fevralı tarixə əsrin ən böyük faciəsi kimi daxil oldu. Həmin gecə Ermənistan hərbi birləşmələri dislokasiya yeri Xankəndi olan 366-cı alayın köməyi ilə şəhəri darmadağın etdi, 613 nəfər öldürüldü, yüzlərlə dinc sakin yaralandı, qaça bilməyənlər əsir götürüldü.

26 ildi bu faciənin günahkarları cəzalandırılmır...

Xocalı soyqırımı Hərbi Dəniz Qüvvələrində də anıldı.

Hərbi Dəniz Qüvvələri komandanının müavini I dərəcəli kapitan Natiq Bağırov tədbiri açıq elan etdi. "Erməni xislətinin nə olduğunu təsdiqləyən bu faciə xalqımızın tarixində soyqırımı günü kimi yaşadılacaq. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 26 fevral Xocalı soyqırımı günü kimi qeyd olunur", - dedi.

Mayor Vüsal Rəsulov Xocalı faciəsi haqqında müfəssəl məlumat verərək qeyd etdi ki, bu faciə miqyasına görə ötən əsrin ən böyük faciəsidir.

I dərəcəli kapitan Zaur Hümmətov bu faciənin mahiyyəti haqqında danışaraq qeyd etdi ki, sülh danışıqları baş tutmasa, biz dənizçilər də torpaqlarımızı döyüşlə azad edənlərin sırasında olacağıq.




Anım tədbirində Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyasının "Əsrin faciəsi" sənədli filmi nümayiş etdirildi.

* * *

Gəncə Qarnizonu Zabitlər Evində də Xocalı faciəsinin 26-cı ildönümünə həsr olunmuş tədbir faciə qurbanlarının xatirəsinə böyük ehtiramın ifadəsinə çevirildi.

Polkovnik-leytenant Rüstəm Məmmədov Azərbaycan xalqının tarixinə XX əsrdə ən böyük faciə, soyqırımı kimi daxil olmuş Xocalı faciəsinin təkcə xalqımıza qarşı yox, bütün bəşəriyyətə, insanlığa yönəlmiş, ən qatı qəddarlıq nümunəsi sayılan hadisə olduğunu diqqətə çatdırdı.

Çıxışına davam edən zabit vurğuladı ki, son illər dövlətimiz iqtisadi, siyasi, hərbi cəhətdən sürətli inkişafa nail olub və ordusunu gücləndirib. “Ordu ilə xalqımızın yenilməz birliyi deməyə əsas verir ki, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edəcəyik. Şuşada, Xankəndidə, Xocalıda, Kəlbəcərdə və digər işğalda olan digər da üçrəngli bayrağımızı dalğalandıracaq, şəhidlərimizin qisasını alacağıq.

Gəncə şəhəri 2 saylı tam orta məktəbin şagirdlərinin və Azərbaycan Texnologiya Universiteti tələbələrinin hazırladıqları "Xocalı gözləyir bizi" ədəbi-bədii kompozisiya nümayiş etdirildi. Əfsanə Mövlayeva və Mehriban Ələkbərova Xocalıya həsr olunmuş şeirləri oxudular.

Sonra tədbir iştirakçıları, hərbi qulluqçular "Xoca" filminə tamaşa etdilər.

* * *

"N" hərbi hissəsində də Xocalı faciəsinin 26-cı ildönümünə həsr olunmuş anım mərasimi keçirildi.

Polkovnik-leytenant Rüstəm Məmmədov xalqımıza qarşı törədilmiş faciənin tarixindən bəhs etdi. Bildirdi ki, ermənilərin havadarlarının dəstəyi ilə xalqımıza qarşı soyqırımı siyasəti uzun illər davam edib. “Tarix boyu dövləti, yurdu olmayan ermənilər Azərbaycan ərazilərində məskunlaşdırılaraq, dövlətlərini yaratmışlar.

XX əsrin əvvəllərində Bakıda, Şamaxıda, Qubada, Gəncədə və başqa ərazilərdə erməni daşnakları kütləvi insan qırğınları törətmişlər. “Böyük Ermənistan” yaratmaq xülyasına düşən ermənilər Vətənimizə qarşı həmişə torpaq iddiaları irəli sürmüşlər və çirkin niyyətlərini həyata keçirmək üçün müxtəlif üsullardan istifadə etmişlər. Ölkəmiz müstəqillik əldə etdikdən sonra onlar Dağlıq Qarabağ vilayətini Ermənistana birləşdirmək üçün Sovet rəhbərliyinin səriştəsizliyindən və ermənipərəst qüvvələrdən istifadə etdilər. Beləliklə, ölkəmizə qarşı elan olunmamış müharibə başlandı.

1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə silah və texnika ilə yaraqlanmış ermənilər xalqımıza, bəşəriyyətə, insanlığa qarşı ən böyük cinayət olan Xocalı soyqırımını törətdilər. Yüzlərlə soydaşımız düşmənlər tərəfindən qətlə yetirildi, bir çoxları əsir düşdü. Bu böyük faciəyə bəzi dövlətlər münasibətlərini bildirsələr də, beynəlxalq təşkilatlar, dünya birliyi tərəfindən soyqırımı aktı hüquqi qiymət verilməyib. Bu böyük ədalətsizliyə, haqsızlığa qarşı heç bir tədbir görülməyib.

Xocalı faciəsinə ölkəmizdə ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən siyasi qiymət verilmişdir. O, bu faciənin bəşəriyyətə, insanlığa, humanizmə qarşı soyqırımı olduğunu bildirmişdir. Bu gün ölkəmizin sürətli inkişafı, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzu, gündən-günə güclənən Azərbaycan Ordusunun qüdrəti deməyə əsas verir ki, torpaqlarımızı işğaldan azad edəcək, Vətənimizin ərazi bütövlüyünü bərpa edəcəyik.”

Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Səyyar bölməsinin əməkdaşları Elnarə Hüseynova, Səidə Müseyibova və başqaları da öz çıxışlarında Xocalı faciəsinin xalqımız tərəfindən heç zaman unudulmayacağını vurğuladılar.

Tədbir iştirakçıları Xocalı faciəsinə həsr olunmuş kitab sərgisinə baxdılar.

Gəncə şəhər məktəbliləri Xocalı faciəsinə həsr olunmuş şeirlər söylədilər.

Sonda "Xoca" filmi nümayiş etdirildi.

**"Azərbaycan Ordusu"**

# "Mən evə qayıdıram" bədii filmi nümayiş etdirildi



Bəşər tarixinin ən qanlı faciələrindən olan Xocalı soyqırımı törədildikdən sonra müxtəlif ölkələrdə yaşayan Azərbaycan oğulları Vətənə can atır və faciə qurbanlarının intiqamını almaq üçün cəbhə bölgəsinə getmək arzusunda olduqlarını təkidlə xahiş edirdilər.

Həmin dövrdə sovet ordusunda xidmət edən azərbaycanlı hərbi qulluqçular da xidmət yerlərini tərk edərək Azərbaycana qayıdır, yeni formalaşmaqda olan Milli Ordumuzun sıralarında Qarabağ uğrunda döyüşlərə atılırdılar. Sonralar Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Eldar Məmmədov, Anatoli Davidoviç, igid hərbi təyyarəçi Vaqif Qurbanov, eləcə də bir çox hərbi qulluqçular əsl fədakarlıqlar göstərirdilər.

"N" hərbi hissəsində keçirilən tədbirdə Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani bu barədə ətraflı söhbət açıb. O, hərbi təyyarəçi Vaqif Qurbanov və onunla birlikdə aviasiya alayında xidmət edən təyyarənin texniki Məmmədovun və aviamexanik Quliyevin köməyi ilə "SU-25" markalı hərbi təyyarəni qaçırmalarından, Xocalı faciəsi qurbanlarının intiqamını alaraq Şuşa, Ağdərə, Əskəran, Ağdam səmalarında düşmənə tutarlı zərbələr vurmalarından xüsusilə bəhs edib.

Qeyd olunub ki, igid pilot Vaqif Qurbanov 8 may 1992-ci il tarixindən hərbi əməliyyatlar gedən Azərbaycan ərazilərində ilk döyüş uçuşlarına başlayıb. Onun reydləri nəticəsində erməni silahlı qruplaşmalarının çoxlu sayda yaraqlısı məhv edilib.



19 iyun 1992-ci ildə Vaqif Qurbanovun idarə etdiyi "SU-25" təyyarəsi erməni silahlı qüvvələri tərəfindən Əskəran yaxınlığında vurulsa da, qəhrəman döyüşçülərimiz onun qisasını qat-qat artıqlaması ilə alıblar.

Nəzərə çatdırılıb ki, əslən Tovuz rayonunun Qovlar kəndindən olan Vaqif Qurbanov Bakıda anadan olmuş, orta məktəbi bitirdikdən sonra Borisoqlebs Ali Hərbi Aviasiya Məktəbini bitirmiş və Azərbaycan ərazisindəki aviasiya alaylarından birində xidmət edirdi.

Polkovnik A.Qurbani daha sonra bildirib ki, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Salnamə" sənədli filmlər kinostudiyası bu mövzuya müraciət edərək "Mən evə qayıdıram" adlı bədii film istehsal etmiş və həmin film böyük marağa səbəb olmuşdur. Filmdə Yaşar Nuri, Fuad Poladov kimi görkəmli xalq artistləri ilə yanaşı, Emil Bədəlov kimi gənc istedadlar da öz rollarının öhdəsindən layiqincə gəlmişlər. Bu film Qarabağ müharibəsi mövzusunda çəkilmiş ən yaxşı filmlərdən biridir.

Filmin baş qəhrəmanı Emil Bədəlovun çıxışını tədbir iştirakçıları alqışlarla qarşılayıb və ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Zabitlərdən Mehman Kərimov, Əhməd Abdullayev və Qarabağ Müharibəsinin Qadın Veteranlarına sosial yardım İctimai Birliyinin sədri Radə Abbas çıxış edərək filmin yaradıcı heyətinə dərin minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda şəxsi heyət "Mən evə qayıdıram" bədii filmini böyük maraqla izləyib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**fotolar**
**leytenant**
**A.ABDURRAHMANOVUNDUR**

*Heç kim unudulmur*

# Xalqın övladı oldu...

*2017-ci il fevralın 24-dən 25-ə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri bütün cəbhə boyu irimiqyaslı təxribatlar törətmək məqsədilə müxtəlif istiqamətlərdə mövqelərimizə soxulmağa cəhd göstərdi. Cəbhənin Xocavənd-Füzuli istiqamətində əlverişli mövqeləri ələ keçirməyə cəhd göstərən düşmənlə qoşunlarımız arasında ağır döyüş toqquşması baş verdi. Bu istiqamətdə də bölmələrimiz düşməni geri çəkilməyə məcbur etdi. İrimiqyaslı təxribatın qarşısını alarkən hərbi qulluqçularımız Abdullayev Aqşin İsmayıl oğlu, Nəzərov Şahlar Yaşar oğlu, Qədimov Zülfü Rəhim oğlu, Cəfərov Zakir Nazim oğlu və Haşımlı Tural Əbdül oğlu şəhid oldular...*



Müstəqilliyimizin qazanılması və qorunması uğrunda bu günə qədər bir çox hadisələrin şahidləri olduq. Kimimiz valideynlərimizi, kimimiz bacı-qardaşımızı, kimimiz övladımızı itirdik. Lakin mübarizə əzmimizi, birliyimizi, əqidəmizi, Vətənə olan sədaqətimizi itirmədik. Güclü ordu qurmağa və bu ordunu peşəkar zabit kadrları ilə, Vətəninə, elinə, obasına bağlı əsgərlərlə komplektləşdirməyə nail olduq. Ailələrdə böyüyən övladlar vətənpərvərlik ruhunda tərbiyə olundular. Vətəni qorumaq eşqi, işğal olunan torpaqları mənfur düşməndən azad etmək istəyi neçə-neçə gəncin yolunu hərbi təhsil ocaqlarından saldı.

1988-ci il dekabrın 27-də Ordubad rayonunun Dırnıs kəndində zəhmətkeş bir ailədə dünyaya göz açan Tural Haşımlı da atasının göstərdiyi yol ilə gedirdi. O yol Vətənə məhəbbət yolu idi. Erkən yaşlarından əkin-biçin işlərində atasına dayaq olan Tural yaxşı anlayırdı ki, torpağı qorumasan, əkib becərməyinə dəyməz. Torpaqların 20 faizi işğal altındadı, necə rahat olmaq olar ki?! Axı Qarabağ Azərbaycanın əzəli və əbədi torpağı, Şuşa Azərbaycanın mədəniyyət beşiyidir. Xocalıda günahsız insanların qanı tökülüb, Laçından, Kəlbəcərdən insanlar didərgin salınıb. O yerləri ömründə bircə dəfə görməsə belə, nə fərqi var, axı oralar Vətən torpağıdır. Çoxsaylı suallar beynini didir, rahatlıq tapmırdı. Qəti qərarını verir. Atasına, məktəbdəki müəllimlərinə seçimini deyir. Qanlı-qadalı günlərin şahidi olmuş Əbdül kişi, övladına xeyir-dua verib onu Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə gətirir.

90-cı illərdə Vətənimizin başı üzərini qara buludlar alanda Əbdül kişi də düşmənlə qarşı-qarşıya idi. Vətən torpaqlarını qorumaq əzmi hər kəsi bir yumruq kimi birləşdirmişdi. Mənfur düşmən Naxçıvana bir neçə istiqamətdən hücum etsə də, məqsədinə yetmədi. Sədərəyi güllə yağışına tutan düşmən ərazini xarabazarlığa çevirsə də, insanların əzmini qıra bilmədi. O vaxt indiki qədər texnika da yox idi. Lakin insanların qəlbindəki Vətən eşqini susdurmaq mümkün deyildi. Bu hadisələr baş verəndə Tural çox kiçik idi. Lakin atası Əbdül kişi üçün düşmən çəpəri idi, gələcəyin qəhrəmanı idi. İndiki gənc nəsil o ataların övladlarıdır, qəhrəman ataların, şəhid ataların, vətənpərvər ataların.

Əbdül Haşımlı söhbətimizdə deyir ki, o vaxt düşmənlə mübarizə aparmaq üçün dəstələr yaradırdıq. "Köməksiz bir vəziyyətdə idik. Elə o vaxtdan arzum Turalı hərbçi görmək idi. Arzuladığım oldu, özü də bu peşəni sevdi və seçdi. Tural üçün bundan doğru seçim indi də mən təsəvvür edə bilmirəm. Babası Haşımov Haşım Əbdül oğlu Böyük Vətən müharibəsində iştirak edib. Göstərdiyi şücaətinə görə Naximov medalına layiq görülüb. Onun da Turalın həyatında böyük rolu olub. Necə deyərlər, ot kökü üstə bitər."

Heydər Əliyev adına Hərbi liseydəki təhsil illəri Turala çox şey qazandırır. Əvvəla məktəb öz ətrafında eyni amal, eyni məqsəd uğrunda birləşən gəncləri toplamışdı. Digər tərəfdən hərbi liseydə yaradılan yüksək tədris şəraiti Turalı da çox ruhlandırırdı. Artıq məqsədinin astanasında idi. 2007-ci ildə Hərbi liseydə xeyir-dua alan gənclər Vətənə sədaqətlə xidmət edəcəklərinə, göstərilən etimadı doğruldacaqlarına söz verib ali hərbi məktəbə yola salınırlar. O məzunların arasında Tural Haşımlı da var idi. Deyirlər, niyyətin hara, mənzilin ora. 2011-ci ildə Bakıdakı Ali Hərbi məktəbi bitirib xidmətə başlayır. Hərb peşəsi digər peşələrə bənzəməz. Bu peşəni qəlbən sevmək lazımdı, ruhuna hopmuşdu, boyuna biçilmişdi sanki.

14 yaşında ikən seçimini edən və bu yolda inamla addımlayan Tural nəhayət istəyinə qovuşmuşdu. Tabeliyində olan əsgərlərlə, silahdaşlarıyla birgə Vətən torpaqlarının keşiyində dayanmışdı. İrəli baxırdı həmişə. Çünki baxdığı başqa ölkənin torpaqları deyil, ana torpaq idi. O torpaq hər bir azərbaycanlı kimi Tural Haşımlını da çəkirdi. Aprel qələbəsi hər kəs kimi Turalı da qürurlandırmışdı. Erməni təxribatının qarşısını alarkən düşmənin layiqli cavabını verən ordu bu yolda şəhid də vermişdi. Onlardan biri də Heydər Əliyev adına Hərbi Liseyin məzunu Qabil Orucəliyev idi.

Turalın da düşmənə intiqam hissi hər gün daha da artırdı. Şəhidlərin qanı yerdə qalmamalı idi. Aprel döyüşlərindəki məğlubiyyəti həzm edə bilməyən Ermənistan rəhbərliyinin bu sindromdan qurtulması üçün növbəti təxribatları gerçəkləşdirməyə ehtiyacı vardı. Azərbaycanın hərtərəfli hərbi-texniki və mənəvi-psixoloji üstünlüyü şəraitində erməni gənclərinin Qarabağda nahaqdan ölmələrinə Ermənistan cəmiyyətinin daim artan etirazları mövcud rejimi ciddi narahat edirdi. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdış da Ermənistanda ciddi təşvişə səbəb olmuşdu. Bu qayıdışın coğrafiyasının genişlənəcəyindən qorxan ermənilər təxribatlar törətməklə "güclərini" göstərməyə cəhd edirlər. Və növbəti belə cəbhəboyu irimiqyaslı təxribat 2017-ci il fevralın 24-dən 25-nə keçən gecə törədilir. Azərbaycan hərbçiləri düşmənin qarşısını qətiyyətlə alıb onu geri çəkilməyə məcbur edir. Qarşı tərəf çoxsaylı itki verir. Təxribatların qarşısını alarkən Tural Haşımlı şəhid olur. Haşımlı Tural Əbdül oğlunun nəşi fevralın 28-də doğulduğu torpağa gətirilir. Kursant kimi Bakıya gedəndə bəlkə də 5-10 nəfər, uzaqbaşı 15-20 nəfər onu yola salmışdı. Amma indi yüzlərlə insan hava limanına axışmışdı. Doğmaları, dostları, tanışları, tanıyan, tanımayan hər kəs, muxtar respublika sakinləri öz şəhidini qarşılamaq üçün toplaşmışdı. Çünki o, 2007-ci ildə Naxçıvandan gedən kursant deyildi. Uğruna canını fəda etdiyi üçrəngli, müqəddəs bayrağa bükülərək geri dönən şəhid idi. Bu insanların Vətən uğrunda birliyinin, əzminin göstəricisi, şəhidlərimizə sonsuz ehtiramının ifadəsi idi. Tural Haşımlının şücaəti qəlbləri riqqətə gətirmişdi. "Qarabağ bizimdir, bizim olacaq", "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları ilə kiçikdən-böyüyə hər kəs küçələrə axışmışdı.

Atası Əbdül deyir ki, mən o günü yadımdan çıxara bilmərəm. "Həm dövlətin, həm insanların dəstəyi mənə dayaq oldu. Naxçıvandakı izdihamı görəndə anladım ki, millət onu özünə oğul götürdü."

Anası Gülnarə xanım o günü xatılayaraq deyir:

- Bütün xalq onu sevdi. Qəhrəman kimi böyümüşdü, qəhrəman kimi də şəhidlik məqamına qovuşdu. Mən bir ana kimi Turalla qürur duyuram, düzdür o həyatda yoxdur, amma qürur duyuram ki, o Vətən yolunda getdi. Vətən sağ olsun! Qoy ermənilər də bilsin ki, biz heç vaxt təslim olmayacağıq. Gec-tez torpaqlarımızı geri qaytaracağıq.

Əsl Azərbaycan qadını, onun sifətindən axan adi göz yaşı deyil, düşmənə nifrətdən yaranan qəzəbdir.

Bir zamanlar çoxuşaqlı analara qəhrəman ana statusu verilirdi. Mənsə belə deyərdim: qəhrəman o anadır ki, qəhrəman yetişdirir. Lap Gülnarə ana kimi. Cəmiyyətimizə, dövlətimizə layiqli oğul böyütdü.

Vətən üçün doğulub Vətən üçün ölənlər nə xoşbəxtdir. Əbdül kişinin ailəsində böyümüş oğul bütün Azərbaycanın övladı oldu. Onu bütün Azərbaycan tanıdı. Hər bir ailədə bu ad qürurla səslənir: Tural Haşımlı.

Ölümündən sonra "Şücaətə görə" medalı ilə təltif olunur.

Haşımlılar ailəsində yenə bir körpə böyüyür: Tural Haşımlı adında. Üzünü görmədiyi, səsini duymadığı qəhrəmanın adını daşıyan 5 aylıq Tural Tanrının ərməğanıdır. Düşmən sevinməsin qoy, hələ neçə Turallar yetişdirəcək bu torpaq, hələ neçə qəhrəmanlar böyüdəcək bu Vətən!

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan Televiziyasının**
**baş redaktoru**

Ordu və cəmiyyət

# "Xocalının qisası alınacaqdır"

*Müsahibimiz tarix üzrə fəlsəfə doktoru dosent Boran Əzizdir. Tarixçi alim elmi dövriyyəyə təqdim etdiyi monoqrafiyasında Xocalı soyqırımının mahiyyətini faktlar və sənədlər əsasında araşdırıb.*



**- Boran müəllim, xalqımıza qarşı dəhşətli soyqırımın həyata keçirilməsində başlıca məqsəd nə idi?**

- Xalqımızı müstəqillik yolundan döndərmək, azadlıq ideyalarını sarsıtmaq.

**- Tarixdən məlumdur ki, Xocalı şəhəri bir neçə dəfə erməni təcavüzünə məruz qalıb. XX yüzilin əvvəllərində 1905-1906, 1917-1918-ci illərdə bu yaşayış məntəqəsi ermənilərin hücumu nəticəsində yandırılsa da, talan edilib dağıdılsa da, yenidən bərpa olunaraq yaşamını davam etdirib. Ancaq... 1992-ci ilin fevralında bu qəsəbədə görünməmiş soyqırımı törədildi.**

- Sovetlər dövründə Xocalının 7 min əhalisi, 3000 min hektardan çox əkin və bağ sahələri, məktəb, kitabxana, mədəniyyət evi var idi. 1988-ci ilin fevralında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayanda onun ilk zərbələrindən biri Xocalıya dəydi.Şəhərin Xankəndi, Əsgəran, ermənilər yaşayan digər qəsəbə və kəndlərində işləyən sakinləri işdən qovuldular. Tarixi Azərbaycan torpaqları olan Ermənistandan qovulmuş 130 azərbaycanlı ailəsi, Fərqanədən didərgin salınmış 40 mesxeti türk ailəsi də Xocalıya pənah gətirmişdi. Onlara burada torpaq sahəsi də ayırmışdılar. Özləri üçün ev tikib şərait yaratmışdılar.

1989-1990-cı illərdə münaqişənin gərginləşdiyi zamanlarda ermənilər Dağlıq Qarabağa, Şuşaya gedən yollarda azərbaycanlılara, o cümlədən də xocalılara məxsus olan maşınları daşa basır, əzir, yandırır, insanları girov götürüb qətlə yetirirdilər. Bu xəbərləri hər gün televiziya ekranlarından eşidir, qəzet səhifələrindən oxuyurduq...

Mən özüm də qarabağlıyam. Ağdamın Mərzili kəndində doğulub böyümüşəm. O günlərin ağrı-acısı içimdən keçib, o faciələri, o müsibətləri anbaan yaşamışam. O hadisələrin canlı şahidiyəm. Xocalı, Qaradağlı, Meşəli, Kərgicahan dərdi yaddan çıxan deyil. Mənfur qonşularımız elə əvvəl gündən niyyətlərini bildirmişdilər. Xocalı camaatı qorxmaz, qoçaq, mərd insanlardı. Xocalının igid oğulları erməni quldurlarına tutarlı cavablar verirdilər.

**- İşğalçı erməni qüvvələrinin Xocalıya ilk irimiqyaslı hücumu nə vaxt olmuşdu?**

- 1988-ci il sentyabrın 18-də. Onlar belə hesab edirdilər ki, elə ilk həmlə ilə Xocalını məhv edib bu maneəni aradan qaldıra biləcəklər. Həmin gün Xankəndidəki nümayişdən çıxan 5 minə qədər ermənin bir qismi piyada, bir qismi maşınlarla Xocalının üstünə hücum etdi. Hücumdan xəbər tutan Xocalının 150 nəfər cəsur oğlu onların qarşısına çıxdı. "Ura"! deyərək əks-hücuma keçdilər. Həmin döyüşdə 27 nəfər azğın erməni öldürüldü. 100-ə qədəri isə yaralanmışdı. Bu, erməni quldurlarına vurulan ilk güclü zərbə idi. Məhz bundan sonra "yazıq", "fağır" erməniləri azərbaycanlıların "hücum"larından qorumaq adı ilə Xocalı şəhərinin sərhədlərində Sovet qoşun hissələri yerləşdirildi...

**- 366-cı motoatıcı alayı nəzərdə tutursunuz?**

- Bəli. Bu alayın tarixinə nəzər yetirək. 366-cı alay Gəncədə yerləşən Sovet ordusuna məxsus diviziyanın tərkibində olub. Nədənsə, 1986-cı ildə birdən-birə bu alay Xankəndi şəhərinə köçürüldü. Və həmin alayın tərkibində çoxlu sayda erməni zabit, gizir, əsgər yerləşdirilməyə başlanıldı. Buradan aydın olur ki, ermənilər qabaqcadan hazırlıq işləri görürmüşlər.

1992-ci ilin fevralında Quşçular, Qaybalı, Malıbəyli kəndləri uzun müddət mühasirədə olmasına və yerli könüllü dəstələrin müdafiəsinə baxmayaraq, 366-cı alayın yaxından köməkliyi nəticəsində işğal olundu. Bu döyüşlərdə də çoxlu sayda soydaşımız erməni vəhşiləri tərəfindən qətlə yetirildi. Xocalıya qədər ən dəhşətli qırğın Qaradağlıda baş vermişdı. Fevralın 17-də bu kənd dörd illik mühasirədən (kəndin dörd tərəfi də erməni kəndi idi.) sonra qüvvələrin qeyri bərabərliyi nəticəsində ermənilər tərəfindən işğal olundu. Bu kəndin camaatı da sonadək qəhrəmancasına düşmənlə mübarizə apardı. 77 nəfər Qaradağlı sakini öldürülmüşdü ki, onlardan 48 nəfəri son dərəcə ağır işgəncələrlə qətlə yetirilmişdi. Hətta bir qismi yandırılmışdı da. Bu insanların əksəriyyətini öz övladlarının, həyat yoldaşlarının, ata-analarının gözləri qarşısında qətlə yetirmişdilər.

**- Bu gün bəşəriyyət haqlı olaraq Hitler faşizmi üzərində Qələbə gününü qeyd edir. Bununla da faşizmin bəşəriyyət üçün nə qədər böyük bəla olduğu insanlara xatırlanır...**

- Mən isə deyərdim ki, erməni faşizmi Hitler faşizmindən qat-qat təhlükəlidir. Erməni faşistləri kəndləri, yaşayış evlərini dağıdaraq elə vəziyyətə salıblar ki, yenidən oraya qayıdıb yaşamaq mümkün olmasın. Hər yerdə tarixi, mədəni abidələri tamamilə məhv ediblər. Bu tarixi abidələr təkcə Azərbaycan xalqına məxsus deyildir. Azərbaycan Qafqazın, Qafqaz da dünyanın bir hissəsidir. Azərbaycan nəinki Qafqazda, hətta dünyada ilk insanların yarandığı, tayfa ittifaqlarının və ilkin dövlət qurumlarının meydana gəldiyi ərazilərdən biridir. Bu cəhətdən də buradakı tarixi abidələrin bütövlükdə dünya üçün böyük əhəmiyyəti vardır. Bax, ermənilər işğal etdikləri Azərbaycan ərazilərində dünya əhəmiyyətli belə tarixi abidələri məhv ediblər. Məsələn, təkcə Azıx mağarası dünyada bəşər sivilizasiyasının ilk insan məskənləri içərisində ikinci, üçüncü yerdə dayanırdısa, keçmiş sovetlər ittifaqında birinci idi.

**- Əslində Xocalı heç də təsadüfən işğal edilməyib, bu şəhərin alınması üçün ermənilər güclü hərbi və canlı qüvvə toplamışdılar.**

- Əlbəttə, Xocalı faciəsi əvvəlcədən ciddi şəkildə düşünülüb hazırlanmış bir hərbi əməliyyat idi. 366-cı alay da bu hərbi əməliyyata, bu hərbi təcavüzə rəhbərlik etmişdi. Xocalı soyqırımı ərəfəsində 366-cı alayın komandiri polkovnik Zarviqarova general-mayor rütbəsi verilmişdi. Bu yüksək rütbənin verilməsi onu göstərirdi ki, soyqırımını törədəcək və icra edəcək bu adamı ruhlandırmaq lazımdır. Araşdırmalarımıza görə, 366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlində cəmlənmişdi.

**- Şahidi olduğunuz o dəhşətli günləri necə xatırlayırsınız?**

- Xocalı qətliamı ərəfəsində və ondan sonrakı günlərdə Bakı Dövlət Universitetinin bir qrup müəllim heyəti ilə birlikdə o proseslərin içində idik. Soyqırımı baş verdikdən sonra vəhşiliyə məruz qalan insanların Ağdamda qarşılanmasını gözlərimizlə görürdük. Xocalı soyqırımı Azərbaycan xalqına qarşı törədilən qəddar vandalizm aktı idi. Miqyası baxımından yalnız 1918-ci ilin mart soyqırımı ilə müqayisə oluna bilərdi. Xalqımız bu qətliamdan, bu faciədən qorxmadı, çəkinmədi. Sonadək müstəqilliyini qoruyub saxladı.

**- Xocalı soyqırımını törədənlər hələ də cəzalarını almayıblar.**

- Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirir. Azərbaycan xalqı 9 dekabr 1948-ci il "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bəşəriyyətə qarşı yönəlmişdir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanlar, Seyran Ohanyan, Serj Sarkisyan, eləcə də Robert Köçəryan və digərləri baş vermiş soyqırımının günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər.

Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayət - Xocalı soyqırımına, əsl soyqırımı hadisəsi kimi beynəlxaq siyasi-hüquqi qiymət verməlidir.

Xocalı soyqırımına aid 6 ölkədə abidə ucaldılıb.

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Xalqımızın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımının on illiyi münasibətilə müraciətində qeyd edirdi ki, bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil olub. "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."

**- Ordumuzun əsgər və zabitlərinə sözünüz...**

- Ordu xalqın müdafiəçisidir, dövlətin təhlükəsizliyinin təminatçısıdır. Orduda xidmət edən hər bir kəs ən yüksək hörmətə layiqdir. Sizə deyim ki, tarixən də belə olub. Məsələn, Səfəvilər dövründə döyüşçülər o qədər böyük nüfuza malik olublar ki, hətta süfrə duasında onların bir-bir adları çəkilib. Yəni bizim milli-mənəvi dəyərlərimizdə, dünyagörüşümüzdə, əcdadlarımızın həyat tərzində orduya belə yüksək hörmət olub. Bu gün biz ordumuzla fəxr edirik. İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi altında ordumuzun aprel qələbələrinin ardı gələcək. Erməni işğalçılarının tapdağında olan Qarabağımız, Şuşamız, Ağdamımız, Laçınımız, Kəlbəcərimiz və digər ərazilərimiz ordumuzun vətənpərvər, igid oğullarının sayəsində azad olunacaq, Xocalı soyqırımının qisası alınacaqdır.

**Müsahibəni apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### İran, Türkiyə və Rusiya prezidentləri apreldə İstanbulda görüşəcəklər



İran, Türkiyə və Rusiya prezidentləri aprel ayında İstanbulda görüşərək Suriya probleminin həllini müzakirə edəcəklər.

Bu barədə məlumat verən İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Bəhram Qasemi hər üç dövlətin problemə baxışında uyğun məqamlar olduğunu söyləyib.

Onun sözlərinə görə, prezidentlər daim əlaqə saxlayaraq siyasi addımlarını koordinasiya edirlər.

Prezidentlərin görüşündə həmçinin üçtərəfli iqtisadi əlaqələrin genişləndirilməsi məsələləri də müzakirə mövzusu olacaq.

### Afrindəki terrorçuların Türkiyə-Suriya sərhədi ilə təması kəsildi



"Zeytun budağı" əməliyyatı çərçivəsində indiyədək 87-si kənd olmaqla, 115 strateji nöqtə YPG-PKK-İŞİD terrorçularından azad edilib.

Afrində aparılan əməliyyatlar nəticəsində terrorçuların Türkiyə-Suriya sərhədi ilə bütün yerüstü təmaslarını kəsmək mümkün olub.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahından yayılan açıqlamaya görə, "Zeytun budağı" əməliyyatının başlanğıcından etibarən 2059 terrorçu zərərsizləşdirilib. Onların 58-i sağ ələ keçirilib. Məlumatda, həmçinin mülki əhalinin təhlükəsizliyini qorumaq və hərəkatı hədəfinə uğurla çatdırmaq məqsədilə bölgəyə xüsusi təyinatlı jandarma və polis dəstələrinin göndərildiyi bildirilir.

Xatırladaq ki, Türkiyənin Suriya ilə sərhədindəki Afrin bölgəsinin terrorçulardan təmizlənməsinə yönəlmiş "Zeytun budağı" əməliyyatı yanvarın 20-də başlayıb.

### Somalidə törədilən iki partlayış nəticəsində 38 nəfər ölüb



Somalinin paytaxtı Moqadişoda törədilən partlayışlar nəticəsində azı 38 nəfər həlak olub.

Prezident iqamətgahının və otellərin birinin yaxınlığında minalanmış avtomobillər partladılıb. Bundan sonra hücum edən silahlılarla təhlükəsizlik orqanları arasında atışma başlayıb. Silahlılardan 5-nin öldürüldüyü bildirilir.

Terror aktlarının məsuliyyətini "Əl-Qaidə" terror təşkilatı ilə əlaqəli olan "Əş-Şəbab" qruplaşması üzərinə götürüb.

### Misir hərbçiləri Sinayda 11 terrorçunu məhv ediblər



Misir ordusunun Sinay yarımadasının şimalında və mərkəzi hissəsində keçirdiyi antiterror əməliyyatı nəticəsində 11 terrorçu məhv edilib, ekstremist fəaliyyətində şübhəli bilinən 600 nəfər saxlanılıb.

Misir silahlı qüvvələri bununla bağlı bəyanat yayıb. Qeyd edilir ki, hərbi posta partlayıcılarla hücum təşkil etməyə hazırlıq işləri aparan dörd yaraqlı öldürülüb. Onların hərbi geyimdə olduqları bildirilir. Axtarışda olan və xüsusi təhlükəli sayılan daha 7 ekstremist Sinayın şimalındakı Al-Ariş rayonunda məhv edilib.

Bəyanatda qeyd olunur ki, terrorçularla əlaqədə şübhəli bilinərək saxlanılan 1447 nəfər yoxlamalardan sonra sərbəst buraxılıb. Bildirilir ki, ötən bir neçə gün ərzində Misir hərbiçiləri tərəfindən Liviya sərhədini qeyri-qanuni keçməyə cəhd göstərən 419 nəfər saxlanılıb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Cəbhəboyu zonada yerləşən bölmələrdə mədəni-kütləvi tədbirlər keçirilib

*Müdafiə nazirinin tapşırığına əsasən hərbi qulluqçuların hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, asudə vaxtının daha səmərəli təşkili məqsədilə səyyar təşviqat dəstəsi tərəfindən düşmənlə təmas xəttində yerləşən bölmələrdə mədəni-kütləvi tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin kollektivi hərbi qulluqçularla görüşlərdə Vətənə, xalqa bağlılıq, dövlətə və hərbi anda sədaqət, düşmənə nifrət hissinin aşılanması ilə bağlı müxtəlif mövzularda söhbətlər aparıb, şəxsi heyət üçün musiqili proqramlar təqdim olunub.

# Naxçıvanda daşqaldırma birinciliyi

Naxçıvan Ordu İdman Klubunda təşkil olunan birincilikdə 14 komandadan 70 idmançı iştirak edib. 60, 65, 70, 80, 90 və 90 kiloqramdan artıq olmaqla 6 çəki dərəcəsində keçirilən yarışda hər bir hərbi qulluqçu daha əzmlə iştirak edərək öz çəki dərəcəsi üzrə birincilik uğrunda mübarizə aparıb. Hərbi qulluqçularla yanaşı Heydər Əliyev adına Hərbi Liseyin kursantları da daşqaldırma birinciliyində iştirak edib.



Əlahiddə Ümumqoşun Ordunun zabiti Vahid Məmmədovun rəhbərlik etdiyi birincilik daşqaldırma yarışlarının proqramına daxil olan birdən və təkanla qaldırma üzrə keçirilib. Hər çəki dərəcəsində qaliblər ən çox xallarla müəyyən edilib.

Şəxsi hesabda 60 kq çəki dərəcəsində əsgər İsmət Mehtiyev, 65 kq çəki dərəcəsində əsgər Zahid Bağırlı, 70 kq çəki dərəcəsində əsgər Hüseyn Hüseynəliyev, 80 kq çəki dərəcəsində əsgər Zöhrab Hüseynov, 90 kq çəki dərəcəsində baş leytenant Əlqəm Gözəlov və 90 kq-dan yuxarı çəki dərəcəsində leytenant Səid Feyziyev birinci yerə layiq görülüblər.



Yekun nəticələrə əsasən komanda hesabında birinci yerdə xüsusi təyinatlılar, ikinci yerdə motoatıcılar, üçüncü yerdə Daxili Qoşunların komandası qərarlaşıb.

İlk üçlüyə düşməyi bacaran qaliblər Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklarla mükafatlandırılıblar.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

Mülki həyatda cinayət törədən və şərti azadlığa buraxılan Ermənistan vətəndaşı Azərbaycanın işğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən düşmən ordusunun hissələrindən birində müqaviləli xidmətə düzəlib.

Eçmiədzin hərbi komissarlığına Penitensiar xidmətdən bildiriş daxil olduqdan sonra məlum olub ki, şərti azadlıqda olan Karen Manuçaryan saxta sənədlər düzəltməklə müqaviləli hərbi xidmətə qəbul olunub.

Hazırda Hərbi Polis və Hərbi Prokurorluq tərəfindən K.Manuçaryanla bağlı araşdırma aparılır. Heç şübhəsiz ki, Manuçaryan özü və ona bu işdə yardımçı olan hərbçilər cinayət məsuliyyətinə cəlb olunacaqlar.

* * *

Hərbi hissədəki şəraitdən təngə gələn erməni əsgər sıra baxışından yayınaraq xidmət yerini tərk edərək evlərinə qaçıb. Onun geri qaytarılması məqsədilə evlərinə Hərbi Polis heyətinin müşayiətilə hərbi hissədən zabit göndərilib.

Yalnız barəsində heç bir qanuni tədbir görülməyəcəyi halda valideynləri övladlarının geri qaytarılmasına razılıq veriblər.

Bu barədə məlumatı sosial şəbəkə istifadəçisi Ermənistanın Gegarqunik vilayətinin Çambarak yaşayış məntəqəsinin sakini Mher Avalyan öz səhifəsində paylaşıb.

* * *

İşğal olunmuş Madagiz yaşayış məntəqəsi ərazisində döyüş növbətçiliyi zamanı erməni əsgəri bədən xəsarəti alıb. Odun doğrayan zaman döş qəfəsindən yaralanan düşmən hərbçisi ambulator müalicə olunur.

Ermənistanın Armavir hərbi komissarlığından xidmətə çağırılan əsgərin valideynlərinə hadisə barədə xəbər verilməyib.

* * *

İşğal edilmiş Madagiz yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində rüşvət tələbetmə faktı ilə bağlı növbəti biabırçı qalmaqal qeydə alınıb.

Erməni əsgərin valideynləri övladlarının xidmət yerini dəyişmək barədə müraciət ediblər. Məsələni həll etmək üçün erməni zabit hərbçinin valideynlərindən pul tələb edib.

Pul ödəyə bilməyən əsgər komandiri tərəfindən vəhşicəsinə döyülüb və taborun tibb məntəqəsinə yerləşdirilib. Bu barədə məlumatı əsgərin qohumu, sosial şəbəkə istifadəçisi, Yerevan şəhər sakini Vahe Amiryan öz səhifəsində yerləşdirib.

**Hazırladı:
İsa ELDAROĞLU**

# İdman

## Azərbaycan idmançıları Avrasiya kubokunda 5 qızıl, 2 gümüş medal qazanıblar



Fevralın 25-də Tbilisidə WK-1 idman növü üzrə Avrasiya çempionatında peşəkar idmançıların yarışı olub.

Azərbaycan idmançısı Murad Babayev 71 kiloqram çəki dərəcəsində Gürcüstan idmançısı Qote Qureşidze ilə qarşılaşıb. Rəqibinə heç bir şans verməyən M.Babayev Avrasiya kubokunun qalibi olub. Peşəkar rinqdə mübarizə aparan digər idmançılarımız Babək Qəmbərov və Sənan Qasımov isə çempionatın gümüş medallarına sahib olublar.

Qeyd edək ki, Avrasiya çempionatı ilk dəfə Gürcüstanda keçirildi. Bu yarışmada həvəskarlar arasında Azərbaycanın dörd idmançısı qızıl medal qazanıblar.

## Boksçumuz "Strandja" turnirində bürünc medal qazanıb



Bolqarıstanın paytaxtı Sofiyada boks üzrə ənənəvi "Strandja" turnirində yarımfinal mərhələsinin döyüşləri yekunlaşıb. Bu mərhələdə Azərbaycan millisinin üzvü Məsud Yusifzadə də rinqə çıxıb.

Turnirdə 52 kiloqram çəki dərəcəsində mübarizə aparan boksçumuz ukraynalı Dmitri Zamotayevlə qarşılaşıb. Döyüş M.Yusifzadə üçün uğurlu alınmayıb və rəqib qələbə qazanıb.

Nəticədə təmsilçimiz 69-cu dəfə keçirilən "Strandja" turnirini bürünc medalla başa vurub.

## Cüdoçumuz Rüstəm Orucov "Böyük dəbilqə" turnirinin gümüş medalına sahib olub



Azərbaycan cüdoçusu Rüstəm Orucov Almaniyanın Düsseldorf şəhərində keçirilən "Böyük dəbilqə" turnirində gümüş medala sahib olub.

73 kiloqram çəki dərəcəsində mübarizə aparan 27 yaşlı idmançı avstraliyalı Ceyk Benstedi, tacikistanlı Behruz Xocazodanı, ermənistanlı Ferdinand Karapetyanı məğlub edərək yarımfinala yüksəlib. Yarımfinalda almaniyalı İqor Vandtkeni məğlub edən idmançımız finalda yaponiyalı Şohei Ono ilə qarşılaşıb. Yaponiyalı idmançı üstün olduğundan cüdoçumuz turniri gümüş medalla başa vurub.

## Azərbaycanlı pilot Formula Körfəz Akademiyası çempionatında qalib gəlib



Abu-Dabidəki Yas Marina trasında Formula Körfəz Akademiyası (Formula Gulf Academy) çempionatının növbəti mərhələsi keçirilib. Bu mərhələdə mübarizə aparan həmyerlimiz Gülhüseyn Abdullayev sonuncu yarışın qalibi olub. Azərbaycanı F4 və F3 çempionatlarında layiqincə təmsil edən həmyerlimiz qış fasiləsindən daha səmərəli yararlanmaq məqsədilə Yaxın Şərq turnirində mübarizəyə qoşulub.

Abu-Dabidə G.Abdullayev Formula Körfəz Akademiyası çempionatının sıralanma turunda üçüncü yeri tutub. Çempionatın formatına əsasən, iştirakçılar doqquz dövrədən ibarət üç yarışda güclərini sınayıblar. İlk yarışda sürücülər sıralanma turunun nəticələrinə uyğun, digər yarışlarda isə əvvəlki yarışın finişinin yekunlarına əsasən düzülüblər.

**AZƏRTAC-ın
materialları əsasında**

Baş leytenant Hüseynov Şəmşir Asif oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 69
Nüsxə 3510